**Azərbaycan Respublikası Auditorlar**
**Palatasının sədri**
**cənab Vahid Novruzova**

**Hörmətli Vahid müəllim,**

Azərbaycan Respublikası Auditorlar Palatasının 30 illik yubileyi münasibətilə Sizi və rəhbərlik etdiyiniz kollektivi səmimi qəlbdən təbrik edirik! Ümummilli Lider Heydər Əliyevin imzaladığı "Auditor xidməti haqqında" Respublikasının Qanununa əsasən təməli qoyulmuş Azərbaycan Auditorlar Palatası artıq 30 ildir ki, ölkəmizdə sərbəst bazar iqtisadiyyatı maliyyə intizamının gücləndirilməsi və maliyyə münasibətlərinin inkişafı, sektorunda şəffaflığın təmin olunması sahəsində müstəsna xidmətlər göstərir. Milli audit sistemi müstəqil audit xidmətləri bazarının inkişafının, sağlam rəqabət mühitinin formalaşdırılmasının, kölgə iqtisadiyyatının aradan qaldırılmasının, vergi intizamının gücləndirilməsinin etibarlı təminatçısına çevrilmişdir.

Auditorlar Palatası qanunvericiliklə müəyyən olunmuş qaydada dövlətimizin mənafeyinin qorunması istiqamətində fəaliyyətini uğurla davam etdirir. Müasir dövrün çağırışları nəzərə alınaraq, iqtisadi islahatların indiki mərhələsində audit sisteminin təkmilləşdirilməsi, onun təsirliliyinin artırılması və beynəlxalq aləmə inteqrasiyasını gücləndirmək sahəsində mühüm işlər görülməkdədir.

Əldə olunan nailiyyətlər möhtərəm Prezidentimiz cənab İlham Əliyevin Azərbaycan auditinə göstərdiyi daimi diqqət və qayğı nəticəsində mümkün olmuşdur. Bu da öz növbəsində auditin keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoyaraq ölkənin iqtisadi-sosial həyatında rolunu və əhəmiyyətini daha da artırmışdır.

Əminik ki, vətənpərvərliyi və milli təəssübkeşliyi, dönməz əqidə və prinsipiallığı, peşəkarlıq xüsusiyyətləri ilə tanınan Auditorlar Palatasının əməkdaşları bundan sonra da milli audit sistemi qarşısında qoyulmuş məsul vəzifələrin yerinə yetirilməsində və ölkəmizdə reallaşdırılan genişmiqyaslı islahatların həyata keçirilməsində yeni nailiyyətlər qazanacaqdır.

Sizi və Auditorlar Palatasının bütün üzvlərini bir daha bu əlamətdar gün münasibətilə ürəkdən təbrik edir, dinamik inkişaf edən və qüdrətlənən doğma Azərbaycanımızın tərəqqisi və xalqımızın rifahı naminə şərəfli fəaliyyətinizdə yeni uğurlar arzulayırıq!

**Hörmətlə,**
**Azərbaycan Respublikasının**
**Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri** **Kamran İmanov**